# Şəmistan Əlizamanlı "Ədalət"ə danışdı

*Azərbaycanımızın ilk hərbi diktoru, vətənpərvərlik mahnılarının tanınmış ifaçısı Şəmistan Əlizamanlının 60 illiyidir.*

*"Ədalət" qəzeti adından zəng eləyib onu təbrik elədim. Aramızda qısa bir dialoq oldu.*

**- Sizi təbrik edirəm!**

**- Çox sağ ol, Ayxan.**

**- Düşünürəm ki, siz səsinizlə xidmət etmisiniz...**

**- Hə, 27 il...**

**- O səsin altında da mən 1 il xidmət etmişəm**

**- Mən də o səsin altında 1 il xidmət etmişəm.**

**- Mən səni də tanıyıram, atanı da tanıyırdım, dost idik...**

**- Yubiley yaşınızdır. Xüsusi bir tədbir olacaqmı?**

**- Gələcək günlərdə düşünürük. Yəqin ki, əvvəlcədən məlumat verəcəyik. Sizi də dəvət edirəm.**



**- 60 yaşda özünüzü necə hiss edirsiniz?**

**- Əla...**

Və yadıma düşdü ki, əsgərlikdə "İgid əsgər" mahnısının sədaları altında sıra addımları ilə gedərkən zabitimiz bizə səslənmişdi: "Bərkdən oxuyun! Bərkdən! Qoyun səsinizi ermənilər də eşitsin və o səsdən ürksünlər".

Mən inanmışdım o mahnının sözlərinə.

Daha da bərkdən ayaqlarımızı döyürdük və daha bərkdən mahnını oxuyurduq.

Hərbi hissədə eşitdiyim o səs mənə həmişə ümid verirdi. Həmişə o səs məndə güc, dözüm yaradırdı. Deyirdim ki, bu səs içimdəki darıxmağın üstünə kölgə kimi düşəcək, mən o kölgənin altında dincələcəm.

Və Şəmistan Əlizamanlı ilə indicə telefonda danışanda da bu inamım bir az da gücləndi. Bəlkə də bizi güclü edən doğma birisinin səsidir.

Dünya da səsdən yaranıb.

**Ayxan**

Ədalət.-2019.-5 fevral.-S.5.